DÜNYA

'Rıbar'ın qurucusu Monteneqrodan çıxarılıb, Rusiyaya qayıdıb

Oktyabr 12, 2026



Mixail Zvinçuk

Rusiyanın müharibə tərəfdarı olan "Rıbar" Telegram kanalının qurucusu **Mixail Zvinçuk**, xanımı Valeriya və layihənin üç əməkdaşı Monteneqrodan çıxarıldıqdan sonra Rusiyaya qayıdıblar. RTVI bu barədə Zvinçuka istinadən məlumat yayıb.

Belqraddan gələn təyyarə oktyabrın 11-nə keçən gecə Moskvanın Şeremetyevo hava limanına enib.

Bloqer Rusiya hökumətinin, Xarici İşlər Nazirliyinin və xüsusi xidmət orqanlarının onun qrupunun azad edilməsində rol oynadığını vurğulayıb.

Monteneqronun baş naziri **Miloyko Spayiç** X sosial şəbəkəsində yazıb ki, ölkəyə qarşı **"hibrid təsir və sabitliyi pozmaq cəhdləri bizi Avropa yolumuzdan döndərə bilməyəcək".**

Bloqerin dediyinə görə, polislər onlardan əcnəbiləri Ukraynaya qarşı müharibədə iştiraka təşviq edib-etmədiklərini soruşublar.

Rusiya vətəndaşlarından kameralar, mobil telefonlar, dron və digər rəqəmsal avadanlıqlar götürülüb. Monteneqro polisi milli təhlükəsizlik səbəblərindən onların ölkədən çıxarılmasına qərar verib, ölkədə qalmaq icazələrini ləğv edib. Zvinçuk deyib ki, götürülən avadanlıq hələ onlara qaytarılmayıb.

9 oktyabr

'Rıbar'ın rəhbəri Monteneqroda saxlanılıb

Rusiyanın Müdafiə Nazirliyi ilə əlaqəli bloqlardan birinin rəhbəri və nəşrin bir neçə əməkdaşı Monteneqroda saxlanılıb.

Monteneqronun baş naziri Miloyko Spayiç oktyabrın 9-da "Rıbar"ın rəhbəri **Mixail Zvinçuk**un və digər Rusiya vətəndaşlarının saxlanılması xəbərlərini təsdiqləyib. Bloqun özü də saxlanmaları təsdiqləyib.

Britaniya və Avropa İttifaqı Zvinçuka sanksiyalar tətbiq edib. Aİ onun Rusiya prezidenti **Vladimir Putin**in Ukraynadakı müharibəyə dəstək yığmaq üçün yaratdığı işçi qrupda olduğunu bildirib.

ABŞ Dövlət Departamenti 2024-cü il seçkilərinə müdaxilə cəhdlərinə görə Zvinçuk və "Rıbar"ın digər təmsilçiləri barədə məlumat üçün 10 milyon dollar mükafat təklif edib.

Spayiç sosial şəbəkədə yazıb ki, ölkənin Avropaya inteqrasiya yolunda hibrid fəaliyyət və sabitliyi pozmaq cəhdləri barədə xəbərdarlıq edirdilər.

Monteneqro 2008-ci ilin dekabrında Aİ-yə üzvlük üçün müraciət edib, 2010-cu ilin dekabrında namizəd statusu alıb, 2012-ci ilin iyununda rəsmın üzvlük danışıqlarına başlayıb.

Film çəkirmişlər

Monteneqro mediası böyük rus icmasının yaşadığı, 2 min sakini olan Risan qəsəbəsində beş nəfərin saxlanıldığını yazıb. Qrupun həmin vaxt Monteneqronun Aİ-yə üzvlük səylərini tənqid edən sənədli film çəkdiyi bildirilir.

“Rıbar” saxlanılanların “ölkə ərazisində qanuni və rəsmi əsaslarla olduqları” bildirib. Bu Telegram kanalının rus dilində təxminən 1,5 milyon, ingilis dilində isə 80 min abunəçisi var.

Rusiyanın keçmiş prezidenti, hazırda Təhlükəsizlik Şurası sədrinin müavini olan **Dmitri Medvedev** sosial şəbəkədə təklif edib ki, “bizimkilərlə” dəyişdirmək üçün Rusiyada Qərb vətəndaşları həbs olunsun.

Bəzi məlumatlara görə, Zvinçukun həyat yoldaşı Valeriya da saxlanılıb.

Rusiya 2022-ci ildə Ukraynaya genişmiqyaslı hücuma başlayandan “Rıbar” Telegram-da ən nüfuzlu rusiyayönlü hərbi kanallardan birinə çevrilib. Son illər o, fəaliyyətini Serbiya, Bosniya və Herseqovina daxil Qərbi Balkanlarda da genişləndirib.

Monteneqronun Moskva ilə münasibətləri uzun müddətdir gərgindir. 2016-cı ildə Podqoritsa Rusiyanı bir qrup serb ultramillətçisi ilə birlikdə dövlət çevrilişi planlaşdırmaqda ittiham edib. Kreml bu ittihamı rədd edib.

Monteneqro 2017-ci ildə NATO-ya üzv olandan münasibətlər daha da pisləşib.

Buna da bax:

Rusiya Danimarkanın müdafiə zavodlarını hədəf alır – Kəşfiyyat

Latviya müdafiə naziri: 'Nüvə təhlükəsi görmürəm, əsas narahatlığımız hibrid hücumlardır'

Almaniya Rusiya ilə silahlı münaqişəyə cəlb oluna bilər – kəşfiyyat rəhbərindən xəbərdarlıq

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur